# BALACALAR SEVİMLİ ŞAİRLƏRİNİ YAD ETDİLƏR

Xalq müəllimi, edib və şair, şe'rləri həmişə uşaqların dilinin əzbəri olan Abdulla Şaiqin dünyaya gəlişinin 120-ci ildönümü fevralın 24-də tamam oldu. Yubiley ərəfəsində respublikamızın təhsil ocaqlarında müəllim-şairə həsr olunmuş çoxlu sayda tədbirlər keçirildi. Bakının Səbayel rayonundakı 39 saylı uşaq bağçasının kollektivi də böyük müəllim və iste'dadlı şairə borclu qalmadılar: fevralın 21-də 134 saylı məktəbin akt zalında keçirdikləri maraqlı bir mərasimlə onu andılar. Körpə balaların məharətinə tamaşa etməyə çox adam — rayonun digər məktəbəqədər tərbiyə müəssisələrindən, BŞBTİ-dən, RTŞ-dan nümayəndələr gəlmişdi. Ədibin oğlu görkəmli ədəbiyyatşünas alim Kamal Talıbzadə, A.Şaiqin ev-muzeyinin əməkdaşları, onun irsinin tədqiqatçısı şair Zahid Xəlil və başqaları isə qonaq qismində mərasimdə iştirak edirdilər. Həmin gün 134 saylı məktəbdə həm də bağçanın tərbiyəçisi Kəmalə Hüseynovanın A.Şaiqin yaradıcılığına həsr olunmuş fərdi əl işləri sergisi açılmışdı. Mərasim iştirakçıları əvvəlcə müəllifin zəngin təxəyyülünün və yaradıcılıq qabiliyyətinin məhsulu olan həmin maraqlı sergi ilə tanış oldular. Müxtəlif təbiət materiallarından, taxıl, düyü, balıqqulağı, ağac və s.-dən nəfis şəkildə və böyük ustalıqla yaradılmış "Bağça", "Zoopark", "Dağ mənzərəsi" və s. mövzularında əl işləri tamaşaçılar tərəfindən heyranlıqla qarşılandı. Sonra körpələr öz məharətini göstərdilər.

Balacaların hazırladığı "Biz hamımız bir günəşin zərrəsiyik" mövzusunda mərasimi tərbiyəçi Fəridə Cəbrayılzadə açıb qonaqları salamladı, böyük edib və müəllim A.Şaiqin uşaqlar tərəfindən həmişə sevildiyini bildirdi. Həm də tədbirin aparıcısı olan F.Cəbrayılzadənin bu sözləri mərasim boyu uşaqların çıxışları da təsdiqlədi. Belə ki, balaca fidanlar saat yarım ərzində şairin onlar üçün yazdığı bütün şe'rləri əzbər söylədilər, nağıl, hekayə və pyesləri səhnəciklər şəklində nümayiş etdirdilər.

Anım mərasimi uşaqlardan ibarət xorun ifasında "Ey ana yurdum" mahnısı ilə açıldı. Sonra birbirinin ardınca şairin vətənpərvərlik, təbiətə məhəbbət motivli, məktəbin, oxumağın faydasını tərənnüm edən, uşaqlara müsbət əxlaqi keyfiyyətlər aşılayan şe'rləri səsləndi. Balaca Adilin, Azərin, Re'nanın, Çinarənin, Lalənin, İlahənin, Ülvinin, Ceylanın, Firəngizin, Solmazın, Nərgizin yaddaqalan ifaları tamaşaçılar tərəfindən hər dəfə alqışlarla qarşılandı. Tədbir onlara olduqca xoş tə'sir bağışladı. Bunu tədbirdən sonra danışmaq üçün söz alanlar xüsusi qeyd etdilər. Səbayel RTŞ-nin müdiri Sara Xanlarova, şair Zahid Xəlil, Bakı Şəhər Baş Təhsil İdarəsinin inspektoru Şəfiqə Əliyeva tədbiri yüksək qiymətləndirib, uşaqlarla çıxışına heyran qaldıqlarını söylədilər. Mərasimin təşkilində RTŞ-ın inspektoru Gülsüm Hüseynovanın, metodist Kəmalə Abdullayevanın zəhməti xüsusi qeyd olundu, ünvanlarına xoş sözlər deyildi.

K.Talıbzadə atasının xatirəsini yad etdiklərinə, maraqlı tədbirə də'vət olunduqlarına görə bağçanın müdiri Rəhilə Məmmədovaya, rayon təhsil şö'bəsinin müdiri Sara xaıma, tədbirin bilavasitə təşkilatçısı Gülsüm Hüseynovaya minnətdarlığını bildirdi. Balacaların çıxışlarından mütəəssir olan qocaman alim səmimi, məharətli çıxışlarına görə onlara təşəkkür etdi.

Mərasimin sonunda tədbiri yüksək səviyyədə hazırladıqlarına və uşaqların tərbiyəsi sahəsində əldə etdikləri uğurlara görə bağçanın müdiri R.Məmmədova, tərbiyəçilərdən G.Hüseynova, F.Cəbrayılzadə, Z.Eyvazova, A.Məstanova RTŞ-nin diplomları ilə mükafatlandırıldılar.

**Y.HƏSƏNƏLİOĞLU.**